**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**SEYİD ABDOLLA HOSEYNİ**

# İRAN İSLAM RESPUBLİKASI VƏ AZƏRBAYCAN RESPUBLİKASI KOMMERSİYA TƏŞKİLATLARI ARASINDA XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

5608.01 – Mülki hüquq; sahibkarlıq hüququ; ailə hüququ;
beynəlxalq xüsusi hüquq

hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2015**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **R.M. Qarayev**
hüquq üzrə fəlsəfə doktoru

**Rəsmi opponentlər:** Barkov Aleksey Vladimiroviç
Hüquq üzrə elmlər doktoru, professor

Simran Seyfəddin oglu Həsənov
hüquq üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın müdafiəsi «28» oktyabr 2015-ci il tarixdə saat 10:30-da Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu nəzdində təşkil edilmiş FD.01.103 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1143, Bakı ş., Hüseyn Cavid pr. 115, Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu, 9-cu mərtəbə, konfrans zalı.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____» __________ 2015-ci ildə göndərilmişdir.

**FD.01.103 Dissertasiya**
**Şurasının elmi katibi,**
**h.ü.f.d., dosent X.Ə.Bayramzadə**

## I. İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** SSRİ-nin dağılmasından sonra post-sovet məkanında müstəqil dövlətlərin meydana çıxması ilə əlaqədar İran İslam Respublikası və bu dövlətlər arasında, xüsusilə də, dövlət müstəqilliyini bərpa etmiş qonşu və qardaş dövlət – Azərbaycan Respublikası ilə qarşılıqlı fayda verə biləcək yeni iqtisadi münasibətlərin quruculuğu daha da aktuallaşmışdır.

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev İran İslam Respublikası parlamentinin spikeri Əli Larinjaninin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən xalqlarımız arasında qardaşlıq əlaqələrinin möhkəmləndirilməsini xüsusi vurğulamış və iqtisadi sahədə bu iki ölkə arasında mübət nəticələrin əldə edildiyini qeyd etmişdir.[1]

Azərbaycan Respublikasına səfəri zamanı İran İslam Respublikasının prezidenti cənab Mahmud Əhmədinecat da, öz növbəsində, qeyd etmişdir ki: «Azərbaycan və İran iki qardaş millət və dövlətdir. Bizim əlaqələr çox yaxşı səviyyədədir. Hal-hazırda iqtisadiyyat, siyasət və mədəniyyət sahələrində əlaqələrimiz inkişaf edir».[2]

İqtisadi münasibətlər Azərbaycan Respublikası və İran İslam Respublikası arasında dövlətlərarası əlaqələr sisteminin vacib tərkib elementidir. Nəzərə almaq lazımdır ki, Azərbaycan və İran dövlətləri arasında ümumi əmtəə mübadiləsinin həcmi ildən ilə dinamik şəkildə inkişaf edir, Azərbaycanın xarici ticarət dövriyyəsində İran əsas yerlərdən birini tutmaqda davam edir. Belə bir şəraitdə Azərbaycanın və İranın kommersiya təşkilatları arasında xarici iqtisadi fəaliyyətin hüquqi cəhətdən tənzimlənməsi məsələləri kifayət qədər aktuallıq kəsb edir.

Keçən dövr ərzində Azərbaycan və İran arasında siyasi, iqtisadi, mədəni, elmi-texniki və s. sahələrdə böyük əməkdaşlıq təcrübəsi formalaşmış, Azərbaycan və İran arasında çoxsaylı hökümətlərarası və idarələrarası saziş və müqavilələr imzalanmışdır ki, bu saziş və müqavilələr

---

[1] Али Ларинджани встретился с президентом и спикером Милли Меджлиса Азербайджана // Зеркало, 2 июля 2011 года.

[2] Азербайджан и Иран являются двумя братскими нациями и государствами – Махмуд Ахмадинежад // http: 1news.az/politics/20101117120347491.html

beynəlxalq hüquqa söykənməklə hər iki tərəf üçün  müvafiq hüquq və vəzifələr yaratmaqdadır.

Azərbaycan və İran dövlətləri arasında iqtisadi münasibətlərin beynəlxalq-hüquqi müstəvidə səmərəli tənzim edilməsi, öz növbəsində, bu dövlətlərin kommersiya təşkilatları arasında birbaşa mübasibətlərin hüquqi tənzimlənməsi üçün də zəruri hüquqi baza yaradır. Məşhur fransız hüquqşünasları D. Karro və P. Jüyar, haqlı olaraq, qeyd edirlər ki, iqtisadi cəhətdən qarşılıqlı asılılıq fenomeni hüquqi problemlər üçün də zəmin yaradır. Bu problemlər çox zaman ondan irəli gəlir ki, beynəlxalq iqtisadi münasibətlər çoxsaylı milli hüquq sistemlərinin mövcudluğu şəraitində təşəkkül tapır.[3]

Beləliklə, tədqiqat mövzusunun aktuallığı ümumilikdə beynəlxalq ticarət dövriyyəsinin hüquqi tənzimlənməsi işində baş verən yeni hadisələrin, xüsusən də, Azərbaycan və İran dövlətlərinin kommersiya təşkilatları arasında qurulan iqtisasi münasibətlərin elmi cəhətdən təhlil edilməsi və bu sahədə formalaşan təcrübənin perspektivlərinin proqnozlaşdırılması zərurətindən irəli gəlir.

**Mövzunun elmi işlənmə dərəcəsi.** Yeni olması səbəbindən bu mövzu hüquq elmində nisbətən az tədqiq edilmiş mövzulardan biridir. Bir sıra tədqiqat işlərində araşdırılan problemin ayrı-ayrı məsələlərinin işıqlandırılmasına baxmayaraq, bu günə kimi Azərbaycan Respublikası və İran İslam Respublikasının kommersiya təşkilatlarının qarşılıqlı xarici iqtisadi fəaliyyətinin hüquqi tənzimetmə problemlərinə həsr edilmiş müstəqil tədqiqat işi aparılmamışdır.

Bununla belə, qeyd edildiyi kimi, araşdırılan problemin ayrı-ayrı məsələlərinə müxtəlif vaxtlarda ayrı-ayrı müəlliflər tərəfindən münasibət bildirilmişdir. Azərbaycan alimlərindən N.Y. Abdullayev, E.İ.Abdullayev, M.N. Ələskərov, A.İ. Əliyev, E.A. Əliyev, L. Hüseynov, R.M. Qarayev, R.M. Məmmədov, A. Mahmudova, V. Mirkamal, M.Y. Rzazadə, M.N. Səmədova, R.A. Eyvazova, O.F. Əfəndiyev kimi müəlliflərin əsərlərində mövzunun ayrı-ayrı məsələləri işıqlandırılmışdır.

Tədqiqat mövzusunun müxtəlif aspektlərinə, bu və ya digər dərəcədə, fars dilində olan ədəbiyyatlarda da rast gəlinir: beynəlxalq kommersiya arbitrajının hüquqi aspektlərinin tədqiq edilməsinə həsr olunmuş Q.R.

---

[3] Карро Д., Жюрар П. Международное экономическое право. Москва: Международные отношения, 2002, с. 7

Nikbəxtin, S.Q. Səfainin, L. Juneydinin, Ç.İ. Qudarzanın, M.İ. Təfərruşun, S.Q. İnayətin əsərlərini qeyd etmək olar.

Müxtəlif dövlətlər arasında iqtisadi və ticarət əlaqələrinin beynəlxalq-hüquqi tənzimetmə, habelə kommersiya müəssisələri və təşkilatları arasında xarici iqtisadi fəaliyyətin hüquqi tənzimetmə məsələləri rusdilli ədəbiyyatda da geniş tədqiq edilmişdir. Belə tədqiqatlara M.M. Boquslavskinin, İ.İ. Lukaşukun, Q.K. Dmitriyevanın, A.S. Komarovun, A.İ. Minakovun, V.P. Zvekovun, M.Q. Rozenberqin, A. Tınelin, Y.İ. Funkun, L.B. Zabelovun, D.A. Yastrebovun, A. Kukinin, A.P. Belovun, M.P. Bardinin, İ.S. Martınovun, A.N. Popkovun və s. əsərlərini aid etmək olar.

Nəhayət, ingilis və digər xarici dillərdə yazılmış bir sıra əsərlərdə də araşdırılan problemin müxtəlif aspektlırinə toxunulduğunu qeyd etmək lazımdır. Belə əsərlər sırasından J. Brounlinin, Q. Bodenhauzenin, R. Davidin, K. Joffre-Spinozinin, M. İssadın, D. Karronun, P. Jürarın, H. Kohun, U. Maqnusun, P. Vinkler fon Morenfelsin, K. Svayqertin, H. Kötzün, A.M. Statytın, N. Völerin, D. Karonun, J.Q. Merrilsin və s. əsərlərini göstərmək mümkündür.

**Tədqiqatın obyektini** Azərbaycan Respublikası və İran İslam Respublikasının kommersiya təşkilatları arasında xarici iqtisadi əlaqələrin qurulması ilə əlaqədar olaraq yaranan və hüquqi cəhətdən tənzimlənməsi zəruri olan ictimai münasibətlər təşkil edir.

T**ədqiqatın predmeti** Azərbaycan və İran arasında qarşılıqlı iqtisadi və ticarət münasibətlərini tənzim edən beynəlxalq müqavilələrdən, Azərbaycan və İranın kommersiya təşkilatlarının hüquqi statusunu müəyyən edən milli hüquq mənbələrindən, o cümlədən, araşdırılan problemlərin (məsələn, iki dövlətin kommersiya təşkilatları arasındakı xarici iqtisadi əqdlərin unifikasiyası, iki dövlət arasında beynəlxalq kommersiya arbitrajı və s. kimi məsələlərin) elmi aspektlərinə dair xüsusi hüquq ədəbiyyatından və statistik göstəricilərdən ibarətdir.

Dissertasiya tədqiqatının **əsas məqsədi** Azərbaycan Respublikası və İran İslam Respublikasının kommersiya təşkilatları arasında mövcud olan xarici iqtisadi əlaqələr sisteminin müasir hüquqi tənzimetmə problemlərinin təhlili əsasında iki dövlət arasındakı xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi və hüquqi tənzimlənməsi təcrübəsində tətbiq edilən hüquq müddəalarının təkmilləşdirilməsinə və daha səmərəli şəkildə tətbiqinə yönəlmiş, elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin hazırlanmasıdır.

Bu məqsədə nail olmaq üçün dissertasiya tədqiqatı qarşısında aşağıdakı **vəzifələr** qoyulmuşdur:

– Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi və ticarət münasibətlərinin beynəlxalq-hüquqi tənzimetmə mexanizminin təhlil edilməsi;

– Azərbaycan Respublikası və İran İslam Respublikası arasında xarici ticarət münasibətlərinin müqavilələr əsasında hüquqi tənzimlənmə vəziyyətinin tədqiq edilməsi;

– Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi və ticarət münasibətlərini tənzim edən müqavilələrin sistemləşdirilməsi;

– Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi və ticarət münasibətlərini tənzim edən müqavilələrin məzmununun təhlil edilməsi;

– İran İslam Respublikası və post-sovet dövlətləri arasında iqtisadi və ticarət münasibətlərinin tənzim edilməsində beynəlxalq ticarət müqaviləsinin rolunun və əhəmiyyətinin müəyyən edilməsi;

– Azərbaycan Respublikası və İran İslam Respublikası arasında bağlanmış beynəlxalq müqavilələr sistemində iki dövlət arasındakı ticarət müqavilələrinin dövlətlərarası iqtisadi və ticarət münasibətlərinin tənzim edilməsindəki rolunun və əhəmiyyətinin müəyyən edilməsi;

– Azərbaycan Respublikası və İran İslam Respublikasında kommersiya təşkilatlarının hüquqi statusunun tədqiq edilməsi;

– Azərbaycan Respublikası və İran İslam Respublikası arasında bağlanan xarici ticarət əqdlərinin milli hüquq mənbələri ilə tənzim edilməsi xüsusiyyətlərinin tədqiq edilməsi;

– Azərbaycan Respublikası və İran İslam Respublikasının kommersiya təşkilatları arasında xarici iqtisadi əqdlərin unifikasiya problemlərinin tədqiq edilməsi;

– Beynəlxalq kommersiya arbitrajı anlayışının müəyyən edilməsi;

– Beynəlxalq kommersiya arbitrajı məhkəmələrinin təsnifatının aparılması;

– Azərbaycan Respublikası və İran İslam Respublikası arasında beynəlxalq kommersiya arbitrajının xüsusiyyətlərinin müəyyən edilməsi;

– Azərbaycan Respublikası və İran İslam Respublikasında beynəlxalq kommersiya arbitrajı məhkəmələrinin qərarlarının tanınması və icrası xüsusiyyətlərinin müəyyən edilməsi.

**Tədqiqatın metodoloji əsası və metodikası.** İşin metodoloji əsasını nəzəri biliklərin, konsepsiyaların qurulmasının prinsip və üsullarının elmi

cəhətdən işlənilməsinə müvafiq olaraq, mülki hüquq və beynəlxalq xüsusi hüquq elmlərinə nisbətdə təhlil edilmiş ümumi hüquq nəzəriyyəsinin fundamental müddəaları təşkil edir.

Metodoloji məsələlərin işlənib hazırlanması prosesində mülki hüquq, sahibkarlıq hüququ, beynəlxalq xüsusi hüquq, sosiologiya, politologiya və digər elm sahələrinin son nailiyyətlərindən istifadə edilmişdir.

Tədqiqat zamanı analiz, sintez, sistemli yanaşma, müqayisəli tədqiqat, modelləşdirmə, təcrübənin ümumiləşdirilməsi, doktrinal şərhetmə və elmi idrakın digər metodları geniş tətbiq edilmişdir.

**Dissertasiyanın nəzəri əsasını** Azərbaycanın, İranın, post-sovet dövlətlərinin və digər xarici dövlətlərin hüquq ədəbiyyatında öz əksini tapmış nəzəri yanaşmalar, anlayışlar və konsepsiyalar təşkil edir.

**Dissertasiyanın normativ əsasını** Azərbaycan Respublikasının və İran İslam Respublikasının Konstitusiyaları, mülki və digər sahəvi qanunvericilik aktları, beynəlxalq-hüquqi müqavilə və sazişlər, Birləşmiş Millətlər Təşkilatının hüquqi sənədləri, o cümlədən, Azərbaycan Respublikasının «Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında «Dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında» Müqavilənin təsdiq edilməsi barədə» Qanunu, Azərbaycan Respublikasının «Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Birgə Bəyannamənin təsdiq edilməsi barədə» Qanunu, Azərbaycan Respublikasının ««Azərbaycan Respublikası və İran İslam Respublikası Hökumətləri arasında iqtisadiyyat və ticarət üzrə əhatəli əməkdaşlığa dair» Protokolun təsdiq edilməsi barədə» Qanunu, Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi ilə İran İslam Respublikasının İqtisadi İşlər və Maliyyə Nazirliyi arasında iqtisadi və texniki əməkdaşlıq üzrə Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında» Fərmanı və s. normativ-hüquqi aktlar təşkil etmişdir.

**Dissertasiyanın empirik əsası** kimi Azərbaycan Respublikasının və İran İslam Respublikasının qarşılıqlı xarici iqtisadiyyat və ticarət siyasəti, o cümlədən, bu dövlətlərin kommersiya təşkilatlarının qarşılıqlı iqtisadi fəaliyyəti çıxış etmişdir.

**Dissertasiyanın elmi yeniliyi** dissertasiyada araşdırılmış məsələlərə yanaşma konteksti, əldə edilmiş elmi nəticələrin təkrarolunmazlığı, nəzəri və təcrübi əhəmiyyəti, eləcə də, müdafiəyə təqdim edilən əsas müddəaların elmi yeniliyi ilə izah edilir.

**Müdafiəyə aşağıdakı müddəalar təqdim edilir:**

1) Azərbaycan Respublikası və İran İslam Respublikası kommersiya təşkilatları arasında xarici ticarət fəaliyyətinin hüquqi tənzimlənməsi mexanizmində mövcud olan problemlər sistemli şəkildə nəzərdən keçirilir, bu problemlərin obyektiv xarakterli olması və hər iki dövlətin milli hüquq sistemləri arasındakı fərqlərlə şərtlənməsi əsaslandırılır;

2) Əsaslandırılır ki, Azərbaycan və İran arasında genişlənməkdə olan xarici iqtisadi əməkdaşlıq hər iki ölkədə qarşı tərəfin milli hüquq sisteminə marağın artmasına səbəb olur. Bu maraq əsasında Azərbaycan və İran qanunvericiliklərinin müqayisəli tədqiqatları təkcə nəzəri deyil, birbaşa təcrübi əhəmiyyət də kəsb edir. Belə ki, hər iki dövlətin müvafiq sahədəki uğurlu təcrübəsinin digər dövlət tərərfindən özünün milli hüququna implementasiya imkanları həm bu sahədə milli qanunvericiliyin, həm də təcrübi fəaliyyətin təkmilləşdirilməsi üçün zəmin yaradır;

3) Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi və ticarət münasibətlərini tənzim edən beynəlxalq müqavilələr sistemi bu ölkələr arasında iqtisadi və ticarət münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsinin əsası kimi nəzərdən keçirilir;

4) Əsaslandırılır ki, İran İslam Respublikası ilə post-sovet dövlətləri arasında iqtisadi və ticarət münasibətlərinin tənzim edilməsində əsas yeri ticarət müqaviləsi (ticarət sazişi) tutur. Bu səbəbdən, Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi və ticarət münasibətlərini tənzim edən beynəlxalq müqavilələr sistemində iki dövlət arasında imzalanmış hökümətlərarası ticarət müqavilələri də aparıcı yer tutur;

5) Qeyd edilir ki, Azərbaycan Respublikası və İran İslam Respublikası kommersiya təşkilatlarının hüquqi statusu və bu təşkilatların xarici iqtisadi fəaliyyəti bu dövlətlərin həm ümumi, həm də xüsusi hüquq mənbələri ilə tənzim edilir;

6) Azərbaycan Respublikası və İran İslam Respublikası kommersiya təşkilatları arasındakı xarici iqtisadi əqdlərin unifikasiyası hər iki dövlətin kommersiya təşkilatları tərəfindən bu əqdlərin həyata keçirilməsinin səmərəliliyinin artırılması vasitəsi kimi təqdim edilir;

7) İran İslam Respublikasının müasir hüquq sistemində xüsusi hüququn dualizmi probleminin mövcudluğu İran İslam Respublikası ilə digər xarici dövlətlər arasında iqtisadi və ticarət münasibətlərinin tənzim edilməsində çətinliklərin yaranması səbəblərindən biri kimi təqdim edilir. Hüquq sistemində dualizm problemi onunla izah edilir ki, İslam Respublikasının müasir hüquq sisteminin formalaşmasına Roman hüquq sisteminin güclü təsir etməsinə baxmayaraq (məsələn, İranda Mülki

Məcəllə, Ticarət Məcəlləsi və s. qəbul edilmişdir və tətbiq edilməkdədir), hazırda İranda hüquq normalarının tətbiq edilməsi zamanı onların şəriət norma və qaydaları ilə ziddiyyət yaratmaması tələb olunur;

8) İran İslam Respublikasının kommersiya təşkilat və müəssisələrinin xarici iqtisadi fəaliyyətinin həyata keçirilməsi rejiminin sadələşdirilməsi, həmçinin, İran İslam Respublikasının xarici iqtisadi fəaliyyətlə əlaqədar qanunvericiliyindəki kolliziyiların həlli İranın hüquq sisteminin gələcək inkişaf istiqamətləri kimi nəzərdən keçirilir;

9) Əsaslandırılır ki, Azərbaycan Respublikası və İran İslam Respublikası kommersiya təşkilatları arasındakı mübahisələrin həll edilməsi üçün arbitraj qaydalarının tətbiqi bu mübahisələrə dövlət məhkəmələrində baxılması ilə müqayisədə bir sıra üstünlüklərə malikdir;

10) Azərbaycan Respublikası və İran İslam Respublikasında tətbiq olunan beynəlxalq kommersiya arbitrajının bir çox oxşarlıqlara malik olması onların hər ikisinin UNSİTRAL qaydalarına əsaslanması ilə izah edilir;

11) Qeyd edilir ki, həm Azərbaycan Respublikasında, həm də İran İslam Respublikasında beynəlxalq kommersiya arbitrajlarının qərarlarının tanınması və icrası 10 iyun 1958-ci il tarixdə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş, 7 iyun 1959-cu il tarixdən qüvvəyə minmiş «Xarici arbitraj qərarlarının tanınması və icra edilməsi barədə» Konvensiyaya (Nyu-York Konvensiyasına) əsaslanır.

**Dissertasiyanın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiyada əldə edilmiş nəzəri nəticələrdən, eləcə də, irəli sürülmüş təcrübi əhəmiyyətli tövsiyələrdən aşağıdakı istiqamətlərdə istifadə edilə bilər:

– Azərbaycan Respublikası və İran İslam Respublikasında dövlətlərarası xarici iqtisadi və ticarət əlaqələrinin tənzimlənməsi funksiyalarını həyata keçirən dövlət orqanlarının fəaliyyətində;

– Azərbaycan Respublikası və İran İslam Respublikasının ali təhsil müəssisələrində beynəlxalq hüquq, beynəlxalq xüsusi hüquq və bu kimi profilli xüsusi kursların tədrisi prosesində;

– Azərbaycan Respublikası və İran İslam Respublikasında bu sahədə sonrakı elmi tədqiqatların aparılmasında;

– Azərbaycan Respublikası və İran İslam Respublikasının milli qanunvericiliyinin təkmilləşdirilməsi işində.

**Tədqiqat nəticələrinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda yerinə yetirilmiş, işin məzmunu və əsas nəticələri həmin İnstitutun «Dövlət və hüquq nəzəriyyəsi, mülki hüququ və mülki proses» və «Beynəlxalq

münasibətlər və beynəlxalq hüquq» şöbələrinin birgə iclasında müzakirə olunaraq açıq müdafiəyə tövsiyə edilmişdir. İşin əsas müddəaları Ulu Öndər Heydər Əliyevin ad gününə və Azərbaycan Respublikasının dövlətçiliyinin bərpasının 20 illiyinə həsr olunmuş «Hüquq elminin və təhsilinin müasir problemləri və həlli yolları» adlı beynəlxalq elmi konfransda (Bakı, 2011-ci il) məruzə edilmiş, yerli və xarici nüfuzlu elmi məcmuələrdə məqalələr qismində dərc olunmuşdur.

**İşin strukturu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. İŞİN ƏSAS MƏZMUNU

İşin **giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, onun elmi işlənmə dərəcəsi işıqlandırılmış, tədqiqatın məqsəd və vəzifələri, obyekt və predmeti, metodoloji, nəzəri və normativ əsasları, o cümlədən, elmi yeniliyi, müdafiəyə təqdim edilən müddəalar, tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti, dissertasiyanın nəticələrinin aprobasiyası və işin strukturu barədə məlumat verilmişdir.

Birinci fəsil **«İran İslam Respublikası və Azərbaycan Respublikası arasında iqtisadi və ticarət əlaqələrinin beynəlxalq-hüquqi tənzimlənməsi»** adlanır və üç paraqrafdan ibarətdir.

Bu fəslin **«İran və Azərbaycan arasında iqtisadi və ticarət münasibətlərini tənzim edən müqavilələr sistemi»** adlanan birinci paraqrafında İran və Azərbaycan arasında iqtisadi və ticarət münasibətlərinin tənzimlənməsinə yönəlmiş müqavilələr, sazişlər, protokollar, memorandumlar və digər beynəlxalq aktlar tədqiq edilir.

Müqavilə və sazişlər həm Azərbaycan Respublikası və İran İslam Respublikası arasında, həm də onların kommersiya təşkilatları arasında iqtisadi və ticarət münasibətlərinin tənzim edilməsinin əsasını təşkil edir. İqtisadi münasibətlər Azərbaycan və İran arasındakı dövlətlərarası əlaqələr sisteminin vacib tərkib elementi kimi çıxış edir. Azərbaycan Respublikası və İran İslam Respublikası arasında əmtəə dövriyyəsinin ümumi həcminin dinamikasının tədqiq edilməsi göstərir ki, iki ölkə arasındakı əmtəə mübadiləsi ildən ilə artmaqda və inkişaf etməkdədir.

Dissertasiya iki ölkə arasında bağlanmış beynəlxalq müqavilələrin hüquqi təbiəti tədqiq edilir və bu müqavilələrin təsnifatı aparılır. Belə bir nəticəyə gəlinir ki, hazırda Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi və ticarət əməkdaşlığının müxtəlif sahələrini tənzim edən beynəlxalq-hüquqi müqavilə və sazişlər sistemi

formalaşmışdır. Bu sistemə iki ölkənin kommersiya təşkilatlarının qarşılıqlı fəaliyyətinin əsas müddəalarını müəyyən edən həm dövlətlərarası və hökümətlərarası müqavilələr, həm də iki ölkənin ayrı-ayrı nazirlikləri və idarələri səviyyəsində bağlanan müqavilələr aiddir.

Bu fəslin **«İranın post-sovet dövlətləri ilə iqtisadi və ticarət münasibətlərinin tənzim edilməsində ticarət müqaviləsinin rolu və əhəmiyyəti»** adlanan ikinci paraqrafında müxtəlif ölkələr arasında iqtisadi və ticarət münasibətlərini tənzim edən beynəlxalq müqavilələr sistemində ticarət müqavilələrinin xüsusiyyətləri araşdırılır.

Beynəlxalq hökümətlərarası ticarət müqaviləsi dövlətlərin xarici iqtisadi fəaliyyətinin beynəlxalq-hüquqi tənzimetmə sisteminin əsas institutlarından biridir. Təcrübədə belə müqavilələr müxtəlif cür adlana bilər: ticarət müqaviləsi, ticarət və iqtisadi əməkdaşlıq haqqında saziş, dostluq, ticarət və dənizçilik haqqında müqavilə, ticarət və naviqasiya haqqında müqavilə, ticarət sazişi və s.[4]

Məsələn, İran İslam Respublikası və Azərbaycan Respublikası arasında, İran İslam Respublikası və Belarus Respublikası arasında, İran İslam Respublikası və Ukrayna Respublikası arasında imzalanmış müqavilələr ticarət sazişləri, İran İslam Respublikası və Rusiya Federasiyası arasında bağlanmış ticarət və iqtisadi əməkdaşlıq haqqında saziş isə razılaşma adlanır. Lakin necə adlanmasından asılı olmayaraq, onların (ticarət müqavilələrinin) hüquqi mahiyyəti dəyişmir. Ticarət müqavilələri ticarətin, gömrük rüsumlarının, nəqliyyat və tranzitin, razılığa gələn ölkələrin hüquqi və fiziki şəxslərinin fəaliyyətinin ümumi hüquqi rejimini, dövlətlər arasında iqtisadi münasibətlərin əsas inkişaf yollarını müəyyən edir, qarşılıqlı hesablaşmalar şərtlərini, əməkdaşlıq müddətlərini və s. nəzərdə tutur.

Bu müqavilələrin əsas əhəmiyyəti ondadır ki, onlar müqavilə tərəfləri olan dövlətlərin hüquqi şəxsləri arasındakı münasibətlər üçün ticarət-iqtisadi rejim müəyyən edirlər. Ticarət müqavilələri, həmçinin, hökümətlərarası sazişlərin bağlanması üçün əsas kimi də çıxış edirlər.

Məlum hadisələr nəticəsində post-sovet məkanında keçmiş ittifaq respublikaları əvəzinə müstəqil dövlətlərin meydana çıxması İran İslam

---

[4] Богуславский М.М. Международное частное право. Москва, 1986, с. 52-53; Международное право. Учебник / отв. ред. Ю.М. Колосов, В.И. Кузнецов. Москва, 1999, с. 420; Лукашук И.И. Международное право. Особенная часть. Москва, 2007, с. 226-227.

Respublikası üçün bu dövlətlərlə yeni faydalı iqtisadi əlaqələrin qurulması məsələsini aktuallaşdırmışdır.

Müəllif tərəfindən qeyd edilir ki, keçən müddət ərzində İran İslam Respublikası ilə post-sovet dövlətləri arasında (Azərbaycan, Rusiya, Belarus, Ukrayna, Qazaxıstan, Qırğızıstan, Tacikistan və s.) iqtisadi fəaliyyətin müxtəlif sahələrində müəyyən əməkdaşlıq təcrübəsi toplanmış, hökümətlərarası və idarələrarası xaraktetli bir sıra müqavilələr, sazişlər, protokollar, memorandumlar və s. imzalanmışdır. Qeyd edilir ki, bu sənədlərin böyük əksəriyyəti beynəlxalq hüquq əhəmiyyətlidir.

Eynitipli müqavilə və sazişlərin müqayisəli-hüquqi təhlilini apararaq müəllif belə bir nəticəyə gəlmişdir ki, İran İslam Respublikası ilə post-sovet dövlətləri arasında hökümətlərarası səviyyədə bağlanmış və bu dövlətlər arasında ticarət-iqtisadi münasibətlərin kompleks şəkildə tənzim edilməsinə yönəlmiş müqavilələr sistemində əsas yeri beynəlxalq ticarət müqavilələri və sazişləri tutur.

Bu fəslin **«İran və Azərbaycan arasında ticarət-iqtisadi münasibətlərin tənzum edilməsində ticarət müqaviləsi»** adlanan üçüncü paraqrafında müəllif iki ölkə arasında ticarət-iqtisadi münasibətlərin hüquqi tənzimlənməsinə yönəlmiş müqavilələr sistemində ticarət müqaviləsinin yerini və rolunu tədqiq etmişdir.

Qeyd edilir ki, 5 avqust 2004-cü il tarixdə, Bakı şəhərində Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında bağlanmış, preambula və iyirmi üç maddədən ibarət olan Ticarət Sazişi iki ölkə arasında iqtisadi və ticarət əməkdaşlığının əsas parametrlərini müəyyən etmişdir. Belə ki, Azərbaycan və İranın təsərrüfat subyektləri arasında xarici iqtisadi əqdlərin bağlanması qaydası məhz bu Sazişlə tənzim edilir. Birincisi, belə əqdlər ticarət müqaviləsinin müddəalarına zidd olmamalıdır. İkincisi, adı çəkilən Sazişə əsasən, razılığa gələn tərəflər, yəni Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında məhsulların və xidmətlərin mübadiləsi və bu iki ölkənin fiziki və hüquqi şəxsləri arasında imzalanmış müqavilələr həmin Saziş əsasında və razılığa gələn hər bir tərəfin milli qanunvericiliyinə müvafiq olaraq həyata keçirilməlidir. Bu tələb həm bağlanılan əqdlərin formasına, həm onların bağlanması qaydasına, həm də tərəflərin öz üzərlərinə götürdükləri öhdəliklərin yerinə yetirilmısinə real imkanlar yaratmalı olan, razılığa gələn dövlətlərin hər birində bütün ixracat-idxalat prosedurlarına aid edilir.

Ticarət Sazişi hər iki tərəfin hüquqi şəxsləri tərəfindən beynəlxalq ticarət metodlarının tətbiqini də dəstəkləyir. Belə ki, nəzərdən keçirilən Sazişin 15-ci maddəsində qeyd edilir ki, razılığa gələn tərəflər öz fiziki və

hüquqi şəxslərini beynəlxalq ticarət metodlarını tətbiq etməyə, ticarət ortaqlıqları, ticarət müəssisələri təsis etməyə və uzunmüddətli kommersiya əməkdaşlığı yaratmağa təşviq edəcəklər. Müəllif tərəfindən göstərilir ki, hər iki tərəfin hüquqi şəxləri tərəfindən beynəlxalq ticarət metodlarının tətbiqi əmtəə tədarükü, kommersiya təşkilatları arasında hesablaşmalar, bank əməliyyatlarının aparılması və s. bunun kimi sahələrə şamil edilir, çünki bütün bu əməliyyatların həyata keçirilməsinin hüquqi forması məhz müxtəlif növlü xarici iqtisadi əqdlər şəklində təzahür olunur.

Xarici iqtisadi əlaqələrdə mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də vergiqoyma məsələsidir. Ticarət Sazişi bu məsələdə də hüquqi tənzimetmə funksiyası daşıyır. Belə ki, Sazişin 5-ci maddəsinə əsasən, razılığa gələn hər tərəfin razılığa gələn digər tərəfin məhsullardan tutduğu gömrük yığım və vergilərin dərəcəsi üçün ölkənin eyni məhsuluna tətbiq edilən dərəcələrdən yüksək olmamalıdır. Lakin, bu maddənin şərtləri aşağıdakılara tətbiq olunmur: a) tərəflərdən birinin öz qonşu ölkələrinə ticarəti və nəqliyyatı asanlaşdırmaq məqsədilə etdiyi və ya edəcəyi güzəşt və azad olunmalara, b) razılığa gələn hər tərəfin azad ticarət zonasının və gömrük ittifaqlarının yaradılmasında iştirakının və yaxud azad ticarət haqqında və ya tamamilə və yaxud qismən vergiqoymaya aidiyyəti olan razılaşmaların nəticəsi kimi milli qanunvericilikdə qəbul edilmiş güzəşt və azad olunmalara.

Sazişdə diqqət yetirilməli olan daha bir məsələ sərhədyanı ticarət bazarlarının yaradılması məsələsidir. Nəzərdən keçirilən Sazişin 16-cı maddəsində qeyd edilir ki, müqavilə tərəfləri iki ölkə arasında sərhədyanı ticarət bazarlarının yaradılması barədə Saziş imzalamaq barədə razılığa gəlmişdirlər. Müəllifin fikrincə, belə sərhədyanı ticarət bazarlarından birinin üç ölkənin, yəni Azərbaycan, İran və Türkiyə sərhədlərində yaradılması daha məqsədəuyğundur. Bundan başqa, müəllif hesab edir ki, Sazişin 15-ci maddəsinin «razılığa gələn tərəflər öz ... hüquqi şəxslərini ticarət ortaqlıqları təsis etməyə və uzunmüddətli kommersiya əməkdaşlığı yaratmağa təşviq edəcəklər» müddəası daha da konkretləşdirilməli və bu sahədə müvafiq əməkdaşlığın tənzim edilməsi üçün əsas hüquqi elementlər müəyyən edilməlidir.

Dissertasiyanın **«İran İslam Respublikası və Azərbaycan Respublikasının kommersiya təşkilatlarının hüquqi statusu və xarici iqtisadi fəaliyyətinin hüquqi tənzimetmə mənbələri»** adlanan ikinci fəsli üç paraqrafdan ibarətdir.

Bu fəslin **«İran İslam Respublikası və Azərbaycan Respublikası qanunvericiliyi üzrə kommersiya təşkilatlarının hüquqi statusu»**

adlanan birinci paraqrafında İran və Azərbaycan qanunvericiliyinə müvafiq olaraq kommersiya təşkilatlarının hüquqi vəziyyətinin müəyyən edilməsi məsələləri tədqiq edilir. Müəllif tərəfindən qeyd edilir ki, İranda və Azərbaycanda kommersiya təşkilatlarının hüquqi vəziyyəti və onların fəaliyyətinin hüquqi təzimlənməsi bu dövlətlərin milli hüquq sistemlərinin xüsusiyyətləri ilə bağlıdır.

İran İslam Respublikasının 1979-cu il Konstitusiyası bütün qəbul edilən qanunların şəriətlə mütləq uyğun gəlməli olması haqqında müddəa nəzərdə tutur. İranda hüququn əsas mənbəyi qanun hesab edilir. Bununla belə, İran İslam Respublikası Konstitusiyasının 4-cü maddəsinə əsasən, bütün mülki, cinayət, maliyyə, iqtisadi, inzibati, mədəni, hərbi, siyasi və digər qanunlar İslam normalarına əsaslanmalıdır. Yeri gəlmişkən, qeyd edilməlidir ki, İran İslam Respublikası Konstitusiyasının 4-cü maddəsi həm Komstitusiyanın özünün digər maddələrinə, həm də bütün digər qanunlarının müddəalarına münasibətdə üstünlüyə malikdir. Ayrı-ayrı qanunların İslam normalarına uyğun gəlib-gəlməməsi haqqında nəticə isə Konstitusiya və İslam normalarının mühafizəsi üzrə Şuranın fakihləri (islam hüquqşünasları) tərəfindən çıxarılır.

İranın müasir mülki-hüquq sistemi ümumilikdə qarışıq xarakter daşısa da (məsələn, şəxsi status məsələləri, ailə-nigah, vərəsəlik münasibətləri müsəlman hüququ ilə tənzim edilir), digər hüquq institutları, bir qayda olaraq, kontinental hüquq sisteminə müvafiq şəkildə tənzim edilməkdədir.

İran İslam Respublikasında mülki hüququn əsas mənbəyi indiyə kimi qüvvədə olan Mülki Məcəllədir. Bu Məcəllə 1335 maddəni əhatə edən üç kitabdan ibarətdir. İran İslam Respublikasının Mülki Məcəlləsi bütövlükdə Avropa hüququndan götürülmüş müddəalar əsasında qurulmuşdur.

İranın ticarət qanunvericiliyinin formalaşmasında da Avropa dövlətlərinin müvafiq qanunvericilik təcrübəsindən geniş istifadə olunmuşdur. İran İslam Respublikasının Ticarət Məcəlləsi 1932-ci il tarixdə fransız nümunəsi əsasında qəbul edilmişdir (sonradan Məcəlləyə əlavə və dəyişikliklər də edilmişdir). Bu Məcəllə 300 maddə və 20 qeyddən ibarətdir.

Azərbaycanın müasir mülki-hüquq sistemi isə kontinental hüquq ailəsinə aiddir. Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə əsasən, «kommersiya təşkilatı» anlayışı «hüquqi şəxs» kateqoriyası ilə əhatə olunur.

Azərbaycan Respublikasının qüvvədə olan Mülki Məcəlləsinin 4-cü fəsli bütövlükdə hüquqi şəxslərə həsr edilmişdir. Bu Məcəllənin 43.5-ci maddəsində qeyd edilir ki, hüquqi şəxslər fəaliyyətinin əsas məqsədi

mənfəət götürməkdən ibarət olan (kommersiya hüquqi şəxsləri) və ya əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları arasında bölüşdürməyən (qeyri-kommersiya hüquqi şəxsləri) qurumlar ola bilər. AR MM-in 64-113-cü maddələri isə kommersiya təşkilatlarının hüquqi statusunu müfəssəl şəkildə tənzim edir.

Aparılan müqayisəli təhlillərdən sonra, müəllif belə bir nəticəyə gəlir ki, İran və Azərbaycanın müasir mülki-hüquq sistemləri bir sıra ümumi cəhətlərə malikdir. Bu ümumi cəhətlər, müəllif tərəfindən Azərbaycanın müasir mülki-hüquq sisteminin kontinental hüquq ailəsinə aid olması ilə izah edilir. İranın müasir mülki hüquq sistemi qarışıq xarakter daşısa da, onun bir çox institutlarının hüquqi tənzimetmə qaydaları kontinental hüquq ailəsindən götürülmüşdür.

Bununla yanaşı, müəllif İran və Azərbaycanın müasir mülki-hüquq sistemləri arasındakı fərqli cəhətlərə də toxunur. Müəllif Azərbaycanın və İranın müasir mülki-hüquq sistemləri arasındakı fərqləri Azərbaycan mülki hüquq sisteminin Alman mülki hüquq modeli, İranın mülki hüquq sistemininin isə Fransa mülki hüquq modeli əsasında qurulması ilə izah edir. Qeyd edilir ki, milli mülki hüquq sisteminin qurulması zamanı hər iki dövlət tərəfindən tətbiq edilən modellərin xüsusiyyətləri Azərbaycan və İranın milli qanunvericiliklərində kommersiya təşkilatlarının hüquqi statuslarının müəyyən edilməsi və onların fəaliyyətinin hüquqi tənzimlənməsi zamanı təzahür olunan xüsusiyyətləri də şərtləndirmişdir.

Belə ki, Azərbaycanın milli qanunvericiliyində kommersiya təşkilatlarının hüquqi statusunun müəyyən edilməsi və onların fəaliyyətinin tənzim edilməsi məsələlərində dualizm modeli tətbiq edilmir, bu səbəbdən kommersiya təşkilatlarının iqtisadi fəaliyyətini tənzim edən aktların başında Mülki Məcəllə durur. İranda isə Mülki Məcəllə ilə yanaşı Ticarət Məcəlləsi də qüvvədədir.

Paraqrafda, həmçinin, qeyd edilir ki, kommersiya təşkilatlarının fəaliyyəti milli hüquqda həm mülki və ya ticarət məcəlləri kimi ümumi xarakterli normativ aktlarla, həm də xüsusi hüquqi aktlar və ya qaunlarla tənzim edilə bilər.

İkinci fəslin **«İran İslam Respublikası və Azərbaycan Respublikası kommersiya təşkilatlarının xarici iqtisadi fəaliyyətinin hüquqi tənzimetmə mənbələri»** adlanan ikinci paraqrafında iki ölkənin kommersiya təşkilatlarının xarici iqtisadi fəaliyyətinin hüquqi tənzimlənməsinin hüquqi bazası tədqiq edilir. Bu paraqraf iki hissədən ibarətdir və onların hər birində müvafiq olaraq İran və Azərbaycanın

kommersiya təçkilatlarının xarici iqtisadi fəaliyyətinin hüquqi tənzimetmə mənbələri araşdırılır.

Azərbaycanın xarici iqtisadi fəaliyyətini tənzim edən qanunvericiliyin sisteminə, ilk növbədə, Azərbaycan Respublikasının 1995-ci il tarixli Konstitusiyası, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, o cümlədən, Azərbaycan Respublikasının «Xarici investisiyaların qorunması haqqında», «Beynəlxalq xüsusi hüquq haqqında», «Valyuta tənzimi haqqında», «Gömrük tarifi haqqında» və s. qanunları aid edilir. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin 24 iyun 1997-ci il tarixli «Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında» Fərmanı ilə «Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları»nın da müəyyən edildiyi göstərilir.

Müəllif İran qanunvericiliyində də kommersiya təşkilatlarının xarici iqtisadi fəaliyyətini tənzim edən bir sıra normativ aktların mövcudluğunu qeyd edir. Belə aktlara, ilk növbədə, İran İslam Respublikasının Konstitusiyası aid edilir. Qeyd edilir ki, İİR Konstitusiyasının 44-cü maddəsinə əsasən, İranın iqtisadi sistemi üç sektora – dövlət, kooperativ və xüsusi sektora əsaslanır. Bütün iri saənaye ilə yanaşı, həm də xarici ticarət məhz İran iqtisadi sisteminin dövlət sektoruna aiddir.

Bununla yanaşı, İranda ixracat-idxalat əməliyyatlarının tənzim edilməsində İİR «İxracat və idxalatın nizamlanması haqqında» Qanunu xüsusi əhəmiyyət kəsb edir. Bu Qanun üç qrup əmtəənin – İranda idxalat və ixracatına icazə verilən, o cümlədən, idxalat və ixracatına müəyyən şərtlərlə icazə verilən, həmçinin, idxalat və ixracatı qadağan edilmiş malların kateqoriyalarını müəyyən edir. Bu Qanunda əmtəənin idxalat və icraat qaydaları ilə yanaşı, ixracat və idxalatçılara dair müddəalar da yer alır.

Qeyd olunan üç qrupun hər birinə aid edilən əmtəənin konkret növləri və nomenklaturası isə İİR Ticarət Nazirliyi tərəfindən tərtib edilən və Nazirlər Kabineti tərəfindən təsdiq edilən aktlarla müəyyən edilir. İİR Ticarət Nazirliyi bu siyahılarda dəyişikliklər etmək səlahiyyətinə də malikdir. Nazirlər Kabineti tərəfindən təsdiq edildikdən sonra bu malların siyahılarını nəzərdə tutan aktlar dərc olunur. Bundan başqa, əmtəənin ixracatına və idxalatına aid bütün təlimatlar və sirkulyarlar İİR Ticarət Nazirliyi vasitəsilə müvafiq icra orqanlarının nəzərinə çatdırılır.

İİR «İxracat və idxalatın nizamlanması haqqında» Qanununun icra edilməsində İİR Nazirlər Kabineti tərəfindən 25 aprel 1994-cü il tarixdə qəbul edilmiş ««İxracat və idxalatın nizamlanması haqqında» Qanununun

icrası haqqında» Qətnamənin də xüsusi əhəmiyyəti vardır. Eynilə, İİR «Gömrük haqqında» Qanunu da əmtəənin gömrük nizamlanmasının ümumi şərtlərini müəyyən etdiyi üçün İranın xarici ticarətinin hüquqi tənzimlənməsinin vacib vasitələrindən biri hesab edilir.

Müəllif belə bir nəticəyə gəlir ki, İranda xarici şirkətlərin iştirakı ilə münasibətlər həm ümumi, həm də xüsusi qanunvericiliklə tənzim edilir. Ümumi qanunvericilikdə (məsələn, İranın vergi və ya əmək qanunvericiliyində) xarici şirkətlərin iştirakı ilə münasibətlərin tənzim edilməsinə həsr olunmuş ayrı-ayrı normalara rast gəlinir. Xüsusi qanunvericilikdə (məsələn İran İslam Respublikasında azad ticarət-sənaye zonalarının yaradılması, xarici investisiyaların qorunması və həvəsləndirilməsi, İran İslam Respublikasında xüsusi iqtisadi zonların yaradılması və idarə edilməsi haqqında və s. qanunvericiliklərlə) isə xarici şirkətlərə aid məsələlər daha müfəssəl şəkildə tənzim edilir.

Bu fəslin **«İran İslam Respublikası və Azərbaycan Respublikasının kommersiya təşkilatları arasında xarici iqtisadi əlaqələrin unifikasiyası problemi»** adlanan üçüncü paraqrafı İran və Azərbaycanın kommersiya təşkilatları arasında beynəlxalq əməliyyatların tənzim edilməsinin hüquqi formalarına, yəni beynəlxalq ticarət əqdlərinə həsr edilmişdir.

Müəllif qeyd edir ki, İran və Azərbaycanın kommersiya təşkilatlarının arasında bağlanan xarici ticarət əqdləri sistemində xarici alqı-satqı müqavilələri daha geniş yer tutur. Göstərilir ki, təcrübədə əqdin mühüm şərtlərinin dəqiq və düzgün ifadə olunması, müqavilənin pozulmasına görə tərəflərin məsuliyyətinin müəyyən edilməsi vacib əhəmiyyət kəsb edir. Bununla yanaşı, nəzərə alınmalıdır ki, dissertasiyada təcrübəsi öyrənilən dövlətlərin (İran və Azərbaycanın) milli hüquq sistemlərinin hər biri alqı-satqı münasibətlərinin tənzim edilməsində özünə xas olan xüsusiyyətlərə malikdir. Bu səbəbdən, əmtəə üzərində mülkiyyət hüququnun satıcıdan alıcıya keçməsi, müqavilə çərçivəsində tərəflərin vəzifələrinin müəyyən edilməsi və s. məsələlər hər iki dövlətdə müxtəlif cür həll olunur. Bu kimi hallar əmtəənin beynəlxalq alqı-satqı sahəsində unifikasiya olunmuş hüquq normalarının qəbul edilməsi zərurətini artırır.

BMT-nin Baş Məclisinin 17 dekabr 1966-cıil tarixli, 2205 saylı qətnaməsinə əsasən yaradılmış Beynəlxalq Ticarət Hüququ Məsələləri Üzrə BMT Komissiyası – UNSİTRAL dövlətlərin çoxu üçün qəbul oluna bilən unifikasiya edilmiş qaydalar müəyyən edir. Bu sahədə hüquqi tənzimetmənin unifikasiyası isitqamətində başqa işlər də görülmüşdür. Məsələn, 1980-ci ildə «Əmtəənin beynəlxalq alqı-satqı müqavilələri

haqqında» Vyana Konvensiyası da qəbul edilmişdir, lakin nə İran, nə də Azərbaycan bu Konvensiyaya qoşulmamışdır.

Bundan başqa qeyd edilir ki, xarici iqtisadi əqdlərin hüquqi tənzim edilməsi sahəsində boşluqların aradan qaldırılması üçün xüsusi hüquqi təbiətə malik olan unifikasiya edilmiş aktlardan da geniş istifadə edilir. Onların sırasında Parisdə yerləşən Beynəlxalq ticarət palatası (BTP) tərəfindən həyata keçirilmiş unifikasiyaları – ticarət terminlərinin təfsir edilməsinin beynəlxalq qaydalarını (İNCOTERMS), BTP-nin beynəlxalq alqı-satqı üzrə nümunəvi müqaviləni, sənədli akkreditivklər üçün unifikasiya edilmiş qaydalar və adətləri (UCP) və inkasso üzrə unifikasiya edilmiş qaydaları göstərmək lazımdır.

Müəllif belə bir nəticəyə gəlir ki, İran və Azərbaycanın kommersiya təşkilatları arasında əmtəənin beynəlxalq alqı-satqı müqavilələrinə aid İNCOTERMS bu tipli müqavilələrin tənzim edilməsində ən vacib normativ mənbələrdən biri ola bilər.

Xüsusi hüquqi unifikasiyanın digər vacib növü olan beynəlxalq kommersiya müqavilələri prinsipləri (UNİDRUA Prinsipləri) xarici iqtisadi müqavilələrin tənzim edilməsində digər vacib mənbələrdəndir. Tövsiyəedici xarakter daşıdığına görə, UNİDRUA Prinsipləri yalnız bu haqda müqavilə tərəflərinin konkret raılığa gəldiyi təqdirdə konkret xarici iqtisadi əqdlər çərçivəsində tətbiq oluna bilər.

Müəllif qeyd edir ki, İran və Azərbaycan arasında xarici iqtisadi əqdlərin bağlanması və icrası qaydalarını tənzim edən unifikasiya edilmiş beynəlxalq hüquqi normativ aktlar mövcud deyildir. Müəllifin fikrincə, İran və Azərbaycanın kommersiya təşkilatları arasında xarici iqtisadi əqdlərin və müqavilələrin hüquqi tənzim edilməsi sahəsində boşluqların aradan qaldırılması üçün müxtəlif nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən hazırlanmış xüsusi hüquqi təbiətə malik olan unifikasiya edilmiş aktlardan istifadə edilə bilər.

İşin **«Arbitraj qaydasında İran İslam Respublikası və Azərbaycan Respublikası kommersiya təşkilatları arasında mübahisələrin həlli»** adlanan üçüncü fəsli də üç paraqrafdan ibarətdir.

Bu fəslin **«Arbitrajın anlayışı və arbitraj məhkəmələrinin növləri»** adlanan birinci paraqrafında müəllif tərəfindən arbitraj anlayışının təhlili və arbitrajın növlərinin tədqiqi kimi məsələlərə yer verilir. Qeyd olunur ki, müxtəlif kommersiya təşkilatlarının qarşılıqlı fəaliyyəti zamanı onlar arasında yarana biləcək mübahisələrin həll edilməsi mexanizmləri kommersiya təşkilatlarının, o cümlədən, İran və Azərbaycanın kommersiya

təşkilatlarının xarici iqtisadi fəaliyyətinin hüquqi tənzimetmə sisteminin vacib aspektlərindəndir.

Müxtəlif dövlətlərin kommersiya təşkilatları arasında mübahisələrin həlli arbitraj (münsiflər) məhkəməsi tərəfindən həyata keçirilir. Arbitraj (münsiflər) məhkəməsi dedikdə, tərəflər arasında yaranan mübahisələrə baxılması və onların həll edilməsi məqsədilə tərəflərin seçdiyi məhkəmə başa düşülür. Belə məhkəmənin tərkibini də tərəflərin özləri müəyyən edir. Eyni zamanda, tərəflərin arbitraj məhkəməsinə müraciət etməsi əsasları barədə də, müstəsna olaraq, tərəflərin özləri razılaşır.

Müxtəlif dövlətlərin təsərrüfat və kommersiya təşkilatları arasında mübahisələrə baxmaq səlahiyyəti olan arbitraj məhkəmələrini beynəlxalq hüququn subyekti olan dövlətlər arasında yaranan mübahisələrə baxmaq səlahiyyəti olan arbitraj məhkəmələrindən ayırmaq lazımdır.

Beynəlxalq kommersiya arbitrajının növlərinə gəlincə isə, müəllif qeyd edir ki, beynəlxalq təcrübədə münsiflər məhkəməsinin iki əsas növünə rast gəlinir: ad hoc arbitrajı və institusional arbitraj.

Ad hoc arbitrajı konkret mübahisənin araşdırılması üçün tərəflərin razılığına əsasən yaradılır. Tərəflərin özləri münsiflər məhkəməsinin yaradılması qaydasını və bu məhkəmədə konkret işin baxılması qaydalarını müəyyən edirlər. İş üzrə qərarın çıxarılmasından sonra ad hoc arbitraj məhkəməsinin fəaliyyətinə son qoyulur.

Ad hoc münsiflər məhkəməsindən fərqli olaraq, institusional, yəni daimi fəaliyyət göstərən münsiflər məhkəmələri müxtəlif təşkilat, assosasiya, ticarət və ticarət-sənaye palataları yanında yaradılırlar. Daimi fəaliyyət göstərən arbitrajlar üçün səciyyəvi xüsusiyyət ondan ibarətdir ki, onlardan hər birinin öz əsasnaməsi (nizamnaməsi), özünün iş icraatı qaydaları, öz arbitrlərinin (münsiflərinin) siyahısı mövcud olur ki, tərəflər münsifləri yalnız həmin siyahılardan seçə bilirlər. Daha sonra müəllif tərəfindən BTP-nin Beynəlxalq Arbitraj Məhkəməsi, London Beynəlxalq Münsiflər Məhkəməsi kimi institusional, yəni daimi fəaliyyət göstərən münsiflər məhkəmələrinin fəaliyyətini araşdırır. Bundan başqa, müəllif dünyada geniş tanınmış bir sıra digər beynəlxalq arbitraj məhkəmələrinin də adlarını sadalayır: Beynəlxalq Kommersiya Arbitrajının Avstraliya Mərkəzi, Avstriya İqtisadiyyatı Federal Palatasının Beynəlxalq Arbitraj Məhkəməsi, Belçika Barışıq və Arbitraj Mərkəzi, Almaniya Arbitraj İnstitutu, Honq Konq Beynəlxalq Arbitraj Mərkəzi, Danimarka Arbitraj Məhkəməsi, Sinqapur Beynəlxalq Abitraj Mərkəzi, Stokholm Ticarət Palatasının Arbitraj İnstitutu, Amerika Arbitraj Assosasiyası, Yaponiya Kommersiya Arbitraj Assosasiyası və s.

Bu fəslin **«İran İslam Respublikası və Azərbaycan Respublikasında beynəlxalq kommersiya arbitrajı»** adlanan ikinci paraqrafı iki hissəyə bölünmüşdür. Bu hissələrdə ayrı-ayrılıqda İranda və Azərbaycanda beynəlxalq kommersiya arbitrajının fəaliyyəti araşdırılmışdır.

1978-ci ildə İranda baş vermiş İslam inqilabından sonra İranla Avropa və ABŞ şirkət və firmaları arasında müxtəlif mübahisələrin yaranması ilə bağlı olaraq İran Avropa arbitrajlarında, eləcə də, İran-ABŞ arbitraj məhkəməsində çoxsaylı beynəlxalq arbitraj mübahisələri ilə üzləşmişdir.

Dünya səviyyəsində arbitraj institutunun sürətlə inkişafını nəzərə alaraq, İranda, xüsusən ticarət müqavilələrinin bağlanması və ölkə iqtisadiyyatına investisiyaların cəlb edilməsi üçün beynəlxalq ticarət mübahisələrinin arbitraj qaydasında həlli zəruri hesab edilmişdir.

İİR-in «Beynəlxalq kommersiya arbitrajı haqqında» yeni Qanunu İran Məşvərət Məclisi tərəfindən 17 sentyabr 1997-ci l tarixdə qəbul edilmiş və Müşahidəçi Şura tərəfindən 5 noyabr 1997-ci il tarixdə bəyənilmiş və həmin tarixdə qüvvəyə minmişdir. Bu Qanun beynəlxalq ticarət hüququ üzrə BMT Komissiyası (UNSİTRAL) tərəfindən təqdim edilmiş 21 iyun 1985-ci il tarixli «Beynəlxalq kommersiya arbitrajı haqqında» Nümunəvi qanun əsasında hazırlanmışdır. Bununla belə, qeyd edilməlidir ki, İİR-in «Beynəlxalq kommersiya arbitrajı haqqında» Qanunu ilə UNSİTRAL-ın Nümunəvi qanunu arasında müəyyən fərqlər də mövcuddur.

Müəllif qeyd edir ki, İranda kommersiya arbitrajı iki əsas xüsusiyyətə malikdir: 1) nəzəriyyə və təcrübədə beynəlxalq kommersiya arbitrajı normalarından istifadə edilməsi; 2) arbitraja dair İran qanunvericiliyində çatışmazlıqların aradan qaldırılması.

Qeyd edilir ki, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda da beynəlxalq kommersiya arbitrajına dair məsələləri tənzim edən qanunvericilik bazası yaradılmışdır, 18 noyabr 1999-cu il tarixdə AR-in «Beynəlxalq arbitraj haqqında» Qanunu (Bu Qanun Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə əməl edilməklə beynəlxalq ticarət arbitrajına tətbiq edilir) qəbul edilmişdir. Bu Qanunun da qəbul edilməsi zamanı UNSİTRAL-ın Nümunəvi qanunundan istifadə edilmişdir.

Bundan başqa, Azərbaycan Respublikasının beynəlxalq arbitrajla bağlı bir sıra beynəlxalq konvensiyalara qoşulması onun beynəlxalq kommersiya arbitrajına dair məsələləri tənzim edən qanunvericilik bazasının genişlənməsinə və təkmilləşməsinə səbəb olmuşdur. Məsələn, Azərbaycan Respublikası hazırda «Xarici arbitraj qərarlarının tanınması və icrası

haqqında» 1958-ci il Nyu-York Konvensiyasının (29 may 2000-ci ildən etibarən), «Beynəlxalq kommersiya arbitrajı haqqında» 1961-ci il Avropa Konvensiyasının (17 aprel 2007-ci ildən etibarən), «Dövlətlər və digər ölkələrin şəxsləri arasında investisiya mübahisələrinin həll edilməsi haqqında» 1965-ci il Vaşinqton Konvensiyasının (18 oktyabr 1992-ci ildən etibarın) iştirakçısıdır.

Qey edilir ki, xarici arbitraj qərarlarının tanınması və məcburi icrası məsələlərini tənzim edən müddəalar Azərbaycan Respublikasının 2000-ci il tarixli Mülki-Prosessual Məcəlləsində də öz əksini tapmışdır.

Belə bir nəticə çıxarılır ki, Azərbaycan Respublikasında qüvvədə olan cari qanunvericilik bazası Azərbaycanda beynəlxalq kommersiya arbitrajının inkişafı üçün əlverişli şərait yaratmışdır.

Üçüncü fəslin **«İran İslam Respublikasında və Azərbaycan Respubliksında beynəlxalq arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası»** adlanan son paraqrafında müəllif tərəfindən beynəlxalq arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası problemini tədqiq etmişdir.

Arbitraj qərarlarının çıxarılması ilə yanaşı, beynəlxalq arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası problemi də vacib əhəmiyyət kəsb edir. Arbitrajda işi udmuş tərəf qərarın icrasını çox zaman cavabdeh tərəfin, ərazisində arbitraj qərarının çıxarıldığı ölkənin hüdudlarından kənarda olan əmlakına yönəltməkdə maraqlı olur.

Xarici arbitraj qərarlarının tanınması və icra edilməsi məsələləri 1958-ci il tarixli «Xarici arbitraj qərarlarının tanınması və icrası haqqında» Nyu-York Konvensiyası ilə tənzim edilir. Hazırda 146 dövlət bu Konvensiyanın iştirakçısıdır.

Bu Konvensiyanın müddəaları bir çox iştirakçı-dövlətlərin milli qanunvericiliyinin əsasını qoymuşdur. Azərbaycan Respublikası da 2000-ci ildən etibarən «Xarici arbitraj qərarlarının tanınması və icrası haqqında» Nyu-York Konvensiyasına qoşulmuşdur. Ümumilikdə, adı çəkilən Konvensiya ilə yanaşı, Azərbaycan Respublikasının «Beynəlxalq arbitraj haqqında», «İcra haqqında» və s. Qanunları, eləcə də, Mülki-Prosessual Məcəlləsi Azərbaycanda xarici arbitraj qərarlarının tanınması və icra edilməsinin hüquqi bazasını təşkil edir.

İran İslam Respublikası isə 1958-ci il tarixli «Xarici arbitraj qərarlarının tanınması və icrası haqqında» Nyu-York Konvensiyasına 2001-ci ildə qoşulmuşdur. Bundan əlavə, arbitraj qərarlarının icrasına dair məsələlər İİR «Beynəlxalq kommersiya arbitrajı haqqında» Qanunu ilə də tənzim edilir.

Belə bir nəticə çıxarmaq olar ki, beynəlxalq arbitraj məhkəmələrinin qərarlarının tanınması və icra edilməsi ilə bağlı münasibətlərin tənzim edilməsi sahəsində İran və Azərbaycanın qanunvericilik bazası arasında çox sayda oxşar cəhətlər mövcuddur. Bununla belə, əgər Azərbaycan Respublikasının Mülki-Proseesual Məcəlləsində beynəlxalq arbitraj məhkəmələrinin qərarlarının tanınması və icra edilməsi ilə bağlı sahəvi qanunun, yəni «Beynəlxalq arbitraj haqqında» Qanunun müddəaları inkişaf etdirilirsə, İran İslam Respublikasının Mülki-Prosessual Məcəlləsində nəzərdə tutulan arbitraj qaydaları beynəlxalq arbitraj məhkəmələrinin qərarlarının tanınması və icra edilməsi ilə bağlı münasibətlərə şamil edilmir.

Yuxarıda qeyd edilən normativ aktlar bütövlükdə İran və Azərbaycanın kommersiya təşkilatları arasında müqavilələr üzrə mübahisələrin yaranması və həllində beynəlxalq kommersiya arbitrajı məhkəmələrinin qərarlarının tanınması və həll edilməsi üçün hüquqi əsas yaradır. Bununla yanaşı, qeyd edilməlidir ki, bu sahədə beynəlxalq kommersiya arbitraj məhkəmələrinin qərarlarının qarşılıqlı tanınması və icrası haqqında İran və Azərbaycan arasında ikitərəfli beynəlxalq müqavilənin də bağlanması mümkündür.

Dissertasiyanın **nəticə** hissəsində tədqiqat zamanı ifadə edilmiş yekun elmi müddəalar, irəli sürülmüş təkliflər, nəzəri ümumiləşdirmələr və təcrübənin öyrənilməsinin nəticələri sistemli şəkildə təqdim edilmişdir.

**Dissertasiya tədqiqatının əsas müddəaları çap etdirilmiş aşağıdakı elmi işlərdə öz əksini tapmışdlır:**


1. Правовые аспекты экономического сотрудничества Исламской Республики Иран и Азербайджанской Республики // Qanun (Bakı ş.), 2010, № 5, s. 14-20.

2. Система международных договоров регулирующих торгово-экономические отношения между Ираном и Азербайджаном // Dirçəliş (Bakı ş.), 2010, № 149-150, s. 374-380.

3. Сотрудничество Ирана и стран СНГ в области транспорта и энергетики: на примере Азербайджана, Беларуси и России // Право и экономика (г. Минск), 2011, с. 34.

4. İranın post-sovet ölkələri ilə iqtisad əlaqələrinin hüquqi nizamlanması sistemində beynəlxalq ticarət müqaviləsi // AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi əsərləri (Bakı ş.), 2011, № 1 (16), s. 366-371.

5. İran və Azərbaycan arasında iqtisadi-ticarət əlaqələrinin hüquqi nizamlanmasında beynəlxalq ticarət müqaviləsinin xüsusiyyəti // Ulu Öndər Heydər Əliyevin ad gününə və Azərbaycan Respublikasının dövlətçiliyinin bərpasının 20 illiyinə həsr olunmuş «Hüquq elminin və təhsilinin müasir problemləri və həlli yolları» adlı beynəlxalq elmi konfransıb materialları, II hissə, Bakı ş., 2011-ci il, s. 263-267.

6. Транспорт и энергетика – движущие силы развития сотрудничества между Исламской Республикой Иран, Республикой Беларусь, Российской Федерацией и Республикой Азербайджан // Известия Национальной Академии Наук Беларуси. Серия гуманитарных наук (г. Минск), 2012, № 1, с. 64-69.

7. Правовые аспекты сотрудничества Ирана и Азербайджана в транспортной и энергетической сфере // AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi əsərləri (Bakı ş.), 2012, № 2 (19).

**Сейед Абдолла Хосейни**

**Правовое регулирование внешнеэкономических связей между коммерческими организациями Исламской Республики Иран и Азербайджанской Республики**

**Резюме**

Данная диссертационная работа посвящена исследованию системы договоров, регулирующих торгово-экономические отношения между Ираном и Азербайджаном, анализу правого статуса коммерческих организаций этих государств и источнику правового регулирования их внешнеэкономической деятельности.

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во **введении** дается общая характеристика диссертации.

В **первой главе – «Международно-правовое регулирование торгово-экономических отношений между ИИР и АР»** исследованы различные договора, соглашения, протоколы, меморандумы и другие международные акты, охватывающие различные сферы торгово-экономических отношений между Ираном и Азербайджаном.

Во **второй главе – «Правовой статус и источники правового регулирования внешнеэкономической деятельности коммерческих организаций ИИР и АР»** рассмотрены вопросы определения правового положения коммерческих организаций в соответствии с законодательством Ирана и Азербайджана, а также исследованы основные источники правового регулирования внешнеэкономической деятельности коммерческих организаций двух стран.

В **третьей главе – «Разрешение споров между коммерческими организациями ИИР и АР»** исследованы вопросы определения арбитража и видов арбитражных судов, особенности функционирования международного коммерческого арбитража, а также вопросы признания и исполнения решений международного торгового арбитража в Иране и Азербайджане.

В **заключении** подводятся итоги проделанной работы, обобщаются основные выводы, которые могут способствовать

эффективному правовому регулированию внешнеэкономических связей между коммерческими организациями Ирана и Азербайджана.

**Seyed Abdallah Hosseyni**

## Legal regulation of foreign economic relations between commercial organizations of Iranian Republic of Iran and Azerbaijan Republic

### Summary

This dissertation work is devoted to research of system of the contracts governing trade and economic relations between Iran and Azerbaijan, to the analysis of the right status of the commercial organizations of these states and a source of legal regulation of their foreign economic activity.

The thesis consists of introduction, three heads, the conclusion and the list of the used literature.

In **introduction** the general characteristic of the thesis is given.

In **chapter 1 – «International legal regulation of trade and economic relations between IIR and AR»** various contracts, agreements, protocols, memorandums and other international acts covering various spheres of trade and economic relations between Iran and Azerbaijan are investigated.

In **chapter 2 – «Legal status and sources of legal regulation of foreign economic activity of the IIR and AR commercial organizations»** are considered questions of definition of a legal status of the commercial organizations according to the legislation of Iran and Azerbaijan, and also the main sources of legal regulation of foreign economic activity of the commercial organizations of two countries are investigated.

In a **chapter 3 – «Settlement of disputes between the IIR and AR commercial organizations»** questions of definition of arbitration and types of arbitration courts, features of functioning of the international commercial arbitration, and also questions of recognition and execution of decisions of the international commercial arbitration in Iran and Azerbaijan are investigated.

In **the conclusion** the results of the done work are summed up, the main conclusions which can promote effective legal regulation of foreign economic relations between the commercial organizations of Iran and Azerbaijan are generalized.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ И ПРАВА**

*На правах рукописи*

**СЕЙЕД АБДОЛЛА ХОСЕЙНИ**

# ПРАВОВОЕ РЕГУЛИРОВАНИЕ ВНЕШНЕЭКОНОМИЧЕСКИХ СВЯЗЕЙ МЕЖДУ КОММЕРЧЕСКИМИ ОРГАНИЗАЦИЯМИ ИСЛАМСКОЙ РЕСПУБЛИКИ ИРАН И АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

5608.01 – Гражданское право; предприниметельское право;
семейное право; международное частное право

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по праву

**Баку – 2015**